Azərbaycanın vergi jurnalı

UOT 338.2: 330.101.541 (479.24)

# Müasir Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin xüsusiyyətləri



**Həsənov Rasim Tapdıq oğlu***
iqtisad elmləri doktoru, prof.
Azərbaycan Dövlət İqtisad Universiteti
İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunun direktoru

## Xülasə

*Tədqiqatın məqsədi* - Azərbaycanda mövcud sosial-iqtisadi vəziyyətin kompleks təhlili əsasında iqtisadi artımın dayanıqlılığının və makroiqtisadi tarazlıq səviyyəsinin müəyyənləşdirilməsi və iqtisadi artımın dayanıqlılığının təmin edilməsi baxımından təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

*Tədqiqatın metodologiyası* - Ümumnəzəri elmi metodlarla yanaşı, statistik təhlil və qruplaşdırma metodlarından ibarətdir.

*Tədqiqatın nəticələri* - Azərbaycan iqtisadiyyatının son illərdəki inkişaf yolunun xüsusiyyətləri araşdırılaraq makroiqtisadi tarazlığın təmin edilməsi yolları haqqında mülahizələr formalaşdırılmışdır.

*Tədqiqatın məhdudiyyətləri* - Tədqiqat işində davamlı artımın əsasən iqtisadi amillərinə baxılır. Müəllifin qənaətinə görə, Azərbaycan iqtisadi potensialı baxımından kiçik ölkə olduğundan tədqiqat işində də kiçik açıq ölkə modeli araşdırılır.

*Tədqiqatın praktiki əhəmiyyəti* - Azərbaycan iqtisadiyyatının müasir inkişaf mərhələsinin əsas tendensiyaları və hərəkətverici amillərini öyrənməyə imkan verir.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - Məqalədə Azərbaycanın müasir sosial-iqtisadi inkişafının spesifik xüsusiyyətləri "milli sosial-iqtisadi inkişaf modeli" kontekstində təqdim olunmuşdur.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, iqtisadi artım, davamlı inkişaf, neft gəlirləri, makroiqtisadi tarazlıq.*

*Bakı şəhəri, AZ1001, İstiqlaliyyət küçəsi, 6.
r.hasanov@aseu.az



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1.Giriş

Ulu Öndərimiz Heydər Əliyevin formalaşdırdığı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi inkişaf strategiyasının realizasiyasının nəticələri məlum olduğu kimi, ölçülən statistik göstəricilərdə, milli və beynəlxalq ekspertlərin qiymətləndirmələrində yetərincə qabarıq təzahür edir. Bir çox tanınmış iqtisadçı alimlər, o cümlədən ilk növbədə professor Ş.Hacıyev və başqaları [6, 7] haqlı olaraq son illərdə ölkəmizdə uğurla aparılan iqtisadi inkişaf siyasətini "milli sosial-iqtisadi inkişaf modeli" kimi identifikasiya edirlər. Çağdaş iqtisadi inkişafımızın tutumlu mahiyyətə malik belə identifikasiyası geniş elmi araşdırmalar tələb edir. Bu məqalə belə araşdırmalardan biri kimi qəbul edilə bilər. Bütün aktuallıqdan irəli gələrək tədqiqatın məqsədinin Azərbaycanda mövcud sosial-iqtisadi vəziyyətin kompleks təhlili əsasında iqtisadi artımın dayanıqlılığının və makroiqtisadi tarazlıq səviyyəsinin müəyyənləşdirilməsi və iqtisadi artımın dayanıqlılığının təmin edilməsi baxımından təklif və tövsiyələrin hazırlanması təşkil edir

## 2. Metodologiya: təhlil və qiymətləndirmələr

Azərbaycan Dövlət İqtisad Universiteti yanında İqtisadi Araşdırmalar Elmi-tədqiqat İnstitutunda aparılmış müvafiq araşdırmalar çərçivəsində tədqiqatlarımızın məlumat bazasını rəsmi statistika, ilk növbədə milli hesablar sisteminin göstəriciləri, beynəlxalq müqayisələr və qiymətləndirmələr təşkil etmişdir. Tədqiqatların metod və yanaşma üsullarını seçərkən aşağıdakı bir sıra fərziyyələr nəzərə alınmışdır.

- Azərbaycan iqtisadi potensialına görə kiçik ölkə hesab edildiyindən tədqiqat işində kiçik açıq ölkə modeli araşdırılır.
- Makroiqtisadi tarazlıq məsələlərinə qısamüddətli və uzunmüddətli dövrlərdə baxılır. Qısamüddətli və uzunmüddətli dövrləri fərqləndirən əsas amil qiymətlərin dinamikası ilə əlaqədardır.
- Hazırda Azərbaycan məşğulluğun təmin edilməsi baxımından gərgin dövrə daxil olmuşdur. Son illərdə əmək qabiliyyətli əhalinin sayı həm mütləq, həm də nisbi baxımdan artmışdır. Belə ki, 1989-cu ildə əhalinin 55,4%-i, 1999-cu ildə 56,8%-i, 2003-cü ildə 64,2%-i, 2009-cu ildə isə 68%-i əmək qabiliyyətli yaşda olmuşdur. Belə yüksək artımın əsas amilləri əhalinin yaş strukturunda baş verən dəyişikliklər və əmək qabiliyyətli yaşın iki il artırılması hesab edilir.
- Hazırda Azərbaycan iqtisadiyyatının tam məşğulluq səviyyəsində olmadığını nəzərə alaraq iqtisadi artım tempinin yüksək olması və investisiya resurslarının mənimsənilməsi məsələləri bu aspektdən qiymətləndirilir. Müasir Azərbaycan şəraitində tam məşğulluğun təmin olunmaması ölkənin iqtisadi artım imkanlarının hələ böyük olduğunu göstərir.

- İqtisadi tarazlıq vəziyyəti, iqtisadi subyektlərin malik olduğu vasitələrlə bu vəziyyəti pozmağa maraqlı olmamalarını xarakterizə edir. Tarazlıq şəraitində yaranan qiymət alıcı tərəfindən yüksək, satıcı tərəfindən isə aşağı hesab edilmir. Belə vəziyyətdə iqtisadi prosesin bütün iştirakçılarının maraq və imkanlarının balansı təmin olunur.
- Tədqiqat işində davamlı artımın əsasən iqtisadi amillərinə baxılır. Bu baxımdan, davamlı inkişaf, sərvətin mənbələri olan istehsal, insan, sosial və təbii kapitalın əvəz edilməsi və ya çevrilməsi ilə adambaşına düşən milli sərvətin azalmamasını təmin edən inkişafdır. Məlum olduğu kimi, iqtisadi inkişaf iqtisadi artımdan daha geniş anlayışdır. Bununla yanaşı, ölkədə iqtisadi inkişafa nail olmağın əsas şərti iqtisadi artımın davamlılığının təmin edilməsidir. İqtisadi artımın istənilən tempi uzunmüddətli iqtisadi inkişafı təmin edə bilmir. Bunun üçün dinamik tarazlı iqtisadi artım tempinə nail olmaq lazımdır. Yəni dayanıqlı iqtisadi artım tempi müəyyən dövrdən-dövrə dinamik olaraq dəyişən məcmu tələb ilə məcmu təklifin bərabərliyini, yəni makroiqtisadi tarazlığı təmin etməlidir. Belə şəraitdə istehlakla qənaət arasında rasional seçimin təmin edilməsi iqtisadi siyasətin mühüm vəzifələrindən birinə çevirilir.

## 3. Sosial-iqtisadi inkişafın «Azərbaycan modeli»nin xarakterik cəhətləri

Araşdırmalarımızın əsas kumulyativ nəticələri kimi aşağıdakıları qeyd etməyi məqsədə müvafiq hesab edirik:

1. <u>Azərbaycanın son illərdə əldə etdiyi fenomenal iqtisadi uğurlar milli inkişafımızın düşünülmüş strategiyasının, Azərbaycanın milli inkişaf modelinin nəticələri hesab edilməlidir.</u>

Azərbaycanın iqtisadi inkişafının xüsusi model kimi identifikasiyası bir neçə məqamla şərtlənir. Professor Ş.Hacıyevin qeyd etdiyi kimi, birinci belə məqam, çox ağır geoiqtisadi fonda iqtisadi inkişafın təmin edilməsidir. İkinci məqam iqtisadi inkişafın təmin edilməsində Azərbaycanın istifadə etdiyi alət və vasitələrdir. Üçüncü məqam iqtisadi inkişafın daxili mənbələrinin düzgün seçilmiş istifadəsi strategiyalarından ibarətdir. Azərbaycan modelinin daha mühüm bir dominantı dövlətin iqtisadi  inkişaf və iqtisadi idarəetmədə rolu ilə bağlıdır. Azərbaycan modelinin növbəti mühüm bir məziyyəti də milli iqtisadi sistemin dünya təsərrüfat sisteminə inteqrasiyasının özünəməxsusluğu ilə şərtlənir. İqtisadiyyatın açıqlıq səviyyəsi yetərincə yüksəkdir, lakin aparılan siyasət və o cümlədən xarici iqtisadi əlaqələrimizin bütövlükdə şaxələndirilmiş xarakteri, milli iqtisadi sistemin arzuolunmaz kənar təsirlərdən çevik və güclü qorunma mexanizminin səmərəli nəticəliliyini təmin edir. Bu özünü sonuncu beynəlxalq maliyyə böhranı zamanında göstərdi. Böhran Azərbaycan modelinin daha bir üstünlüyünü aşkarladı. Beləki, sosial-iqtisadi inkişafın dayanıqlığının təmin edilməsinin  aparıcı prinsipə çevirilməsi hökumətin

böhran şəraitində bir çox ölkələrdən fərqli olaraq daxili bazarın aktivliyinin qorunması üçün büdcə vəsaitlərinin istifadəsində ciddi qənaətlərə yol verməməsini şərtləndirdi.

Milli inkişaf modelinin ən mühüm xüsusiyyəti isə, dövlətin iqtisadi siyasətinin inkişafın davamlılığı, dayanıqlılığı və tarazlığına hədəflənməsi hesab edilməlidir. Bu iqtisadi siyasətdə populyar tədbirlərə yox, real nəticəliyə, qısa deyil, uzunmüddətli məqsədlərə üstünlük verilməsi və dövlətin iqtisadi fəaliyyətinin qiymətləndirilməsinə heç də həmişə marjinal meyarlarla yanaşılmamasında ifadə edilir. Bu məqam ölkə miqyasında infrastrukturun əsaslı modernləşdirilməsi, regionların sosial-iqtisadi inkişafının ciddi dəstəklənməsi, məcburi köçkünlərin, şəhid və əlil ailələrinin həyat şəraitinin yaxşılaşdırılması və s. üçün ardıcıl tədbirlərin həyata keçirilməsində bariz şəkildə ifadə olunur.

Apardığımız araşdırmalar, İqtisadi inkişafda müşahidə olunan əsas meyillərin ölkənin milli hesablar sisteminin məlumatları əsasında tədqiqinin nəticələri, yuxarıda qeyd olunan əlamətlərin təsdiqlənməsini, inkişafımızın dayanıqlığı, davamlılığı və tarazlığının yüksəlməsini sübut edir.

2. <u>Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanda neft strategiyasının uğurla reallaşdırılması milli iqtisadiyyatın inkişafına səbəb olmuşdur.</u>

Ölkədə ümumi daxili məhsul 2009-cu ildə 2000-ci ilə nisbətən 3,8 dəfə artmışdır. Məlum olduğu kimi, belə iqtisadi artım əsasən neft və qaz hasilatı sahəsinin inkişafı hesabına baş vermişdir. Belə ki, 2009-cu ildə yaradılmış ümumi daxili məhsulun 42,4%-ni neft və qaz hasilatı sahəsinin payına düşmüşdür. Həmçinin, araşdırmalar göstərir ki, 2000-ci ilə nisbətən 2009-cu ildə ölkədə ümumi daxili məhsulun artımının 47,8%-i neft və qaz hasilatı sahəsinin hesabına baş vermişdir.

Eyni zamanda, neft və qaz hasilatı sahəsində yaradılan əlavə dəyər ümumi daxili məhsulun əsas hissəsini təşkil etməklə yanaşı, bu gəlirlərin bir hissəsinin xərclənməsi digər sahələrin məhsullarına tələb yaratmaqla onların inkişafını təmin etmişdir. Xüsusilə, təhsil, səhiyyə və digər sahələrdə yaradılan əlavə dəyərin əhəmiyyətli hissəsi neft gəlirlərinin xərclənməsi hesabına yaranmışdır.

Araşdırmalar göstərir ki, təkcə Dövlət büdcəsinin neft gəlirləri əsasında formalaşan hissəsi hesabına yaranan ümumi tələb, 2009-cu ildə 7772,9 mln. manata bərabər olmuşdur. Bu xərclər daxili tələbin 30,0%-ni təşkil etmişdir. Qeyd edilən xərclərin multiplikativ təsirini də nəzərə alsaq, onda neft gəlirlərinin xərclənməsinin daxili tələbin formalaşmasında rolunun daha böyük olduğu qənaətinə gəlirik.

Beləliklə, ölkəmizdə müasir dövrdə neft və qaz hasilatı hesabına əldə edilən gəlirlər iqtisadi artımı müəyyən edən əsas amillərdəndir.

Digər tərəfdən araşdırmalar göstərir ki, neft və qaz hasilatı sənayesinin ümumi buraxılışında mənfəətin payı digər sahələrə nisbətən əhəmiyyətli dərəcədə yüksəkdir. Ölkəmizdə bu sahənin ümumi buraxılışında aralıq istehlakın payı 2009-cu ildə 8,3%,

əmək haqqının payı 3,8%, əsas fondların istehlakının payı 2%, xalis mənfəətin payı isə 85,6% bərabər olmuşdur. Belə hal bu sahənin milli iqtisadiyyatın digər sahələrində istehsal edilən məhsullara tələbə, həmçinin məcmu tələbin artımına təsirini məhdudlaşdırır. Belə ki, neft və qaz hasilatı sahəsinin ölkədə məhsul və xidmətlərin ümumi buraxılışında payı 2009-cu ildə 33,5% olduğu halda, aralıq istehlakda payı 8,4%, ödənilmiş əmək haqqında payı isə 10,0%-ə bərabər olmuşdur.

Beləliklə belə nəticəyə gəlmək olar ki, bəzi "ekspertlərin" iddia etdikləri kimi Azərbaycanda neft və qaz hasilatı hesabına yüksək iqtisadi artım şəraitində makroiqtisadi tarazlığın əhəmiyyətli şəkildə pozulması böyük ehtimala malik deyildir.

3. Azərbaycanda neft gəlirlərinin artması onun istehsal imkanlarının artırılması üçün iri həcmli investisiya qoyuluşlarını həyata keçirməyə imkan vermişdir. Belə ki, 2000-ci ilə nisbətən əsas kapitala investisiya 2009-cu ildə 9,4 dəfə artmışdır. 1995-1999-cu illərdə ölkə iqtisadiyyatına yönəldilmiş cəmi investisiyanın 27,1%-i, 2000-2004-cü illərdə 24%-i daxili mənbələr hesabına həyata keçirilmişdirsə, 2005-ci ildə bu göstərici 31,3%-ə, 2008-ci ildə isə 57,8%-ə, 2009-cu ildə 57,3%-ə qədər artmışdır.

2000-ci ilə nisbətən 2009-cu ildə büdcə vəsaitləri hesabına əsas kapitala investisiya qoyuluşlarının həcmi 119 dəfə artmışdır. Nəticədə, əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarının maliyyələşdirilməsində büdcə vəsaitlərinin payı 2000-ci ildə 2,3%-dən, 2009-cu ildə isə 35%-ə yüksəlmiş, əsas kapitala qoyulmuş yerli investisiyanın isə 44,5%-i bilavasitə dövlət büdcəsinin vəsaitləri hesabına həyata keçirilmişdir.

Araşdırmalar göstərir ki, dövlətin ölkədə investisiya fəallığının artırılmasında və özəl sektorun investisiya qoyuluşlarının maliyyələşdirilməsində rolunun artırılması məqsədəuyğundur [8, 9]. Hazırda məcmu qənaətin əsas hissəsi neft sektorunun hesabına formalaşır və bu vəsaitlərin böyük hissəsi isə dövlətin sərəncamında qalır. Belə ki, 2009-cu ildə məcmu qənaətin 54,1%-i dövlətin payına düşmüşdür [2, 3]. Bununla yanaşı, dövlətin sərəncamında olan 8022,6 mln. manat məbləğində olan qənaətin yalnız 2270,0 mln. manatı fiziki kapitala investisiya qoyuluşuna yönəldilmişdir.

Araşdırmalar göstərir ki, bütövlükdə ölkədə 2005-2009-cu illər ərzində əsas kapitalın cəmi yığımı məcmu qənaətin təqribən 60%-nə bərabər olmuşdur. Bu isə, ölkədə investisiya qoyuluşlarının maliyyələşdirilməsi üçün böyük daxili imkanların mövcud olduğunu göstərir.

4. Aparılan tədqiqatlar göstərir ki, məcmu qənaətin məhsuldar investisiyaya çevrilməsi kanallarının qeyri-təkmilliyi ölkəmizdə iqtisadi artımın təmin olunmasının və kapital yığımının ən mühüm problemi olaraq qalır.

Məlum olduğu kimi, real sektora qoyulan investisiyanın ödənilmə müddətinin nisbətən uzun, risk səviyyəsinin isə nisbətən yüksək olması, cəlb edilən in-

vestisiyalara tələb edilən gəlirlik normasının yüksək olmasını şərtləndirir. Həmçinin ölkədə əmlak və fond bazarının zəif inkişafı pul vəsaitlərini cəlb edən subyektlərin marağı baxımından riskləri artırır. Çünki belə bazarların zəif inkişafı mövcud əmlakın bazar qiymətinin müəyyən olunmasını çətinləşdirməklə yanaşı, onların likvidliyini də azaldır. Nəticədə, investisiyaların maliyyələşdirilməsi üçün cəlb edilən borc vəsaitlərinin təminatı üçün mövcud əmlakdan girov kimi istifadə etmək imkanları məhdud olur. Həmçinin bu əmlakdan girov kimi istifadə edilsə belə, bununla əlaqədar risklərin səviyyəsi faiz dərəcəsinin yüksəlməsinə gətirib çıxarır. Buna görə də, real sektorun inkişafında dövlətin aktiv iştirak etməsinə ehtiyac vardır.

Dünya təcrübəsindən məlumdur ki, yeni istehsal subyektlərinin yaradılması müvafiq bilik və təcrübənin olmasını tələb edir. Belə ki, investisiya qərarının qəbulu müvafiq marketinq tədqiqatlarının aparılması, yeni imkanların müəyyənləşdirilməsinin və potensialının qiymətləndirilməsini ehtiva edir. Özəl sektorun qeyd edilən sahədə təcrübəsinin azlığı və ya rəqabətqabiliyyətinin aşağı olması ölkədə səmərəli investisiya ideyalarının formalaşmasını, onun həyata keçirilməsinin planlaşdırılmasını və son nəticədə investisiya layihəsinin səmərəli reallaşdırılmasını məhdudlaşdırır. Çox vaxt bu amilin ölkədə investisiya fəallığına təsiri, investisiyanın maliyyələşdirmə mənbələrinin məhdudluğuna nisbətən yüksək olur. Adətən, ölkədə investisiyanın maliyyələşdirilməsi üçün vəsaitlər olduqda belə məhz qeyd edilən amilin təsiri nəticəsində bu vəsaitlər çox vaxt qeyri-məhsuldar investisiya qoyuluşlarının maliyyələşdirilməsinə sərf olunur, milli iqtisadiyyatın birtərəfli inkişaf etməsi, qeyri-ticari məhsulların istehsalının üstünlük təşkil etməsi baş verir. Bu baxımdan, Azərbaycanda Dövlət İnvestisiya Şirkətinin fəaliyyətinin genişlənməsi, iri dövlət korporasiyalarının sosial-infrastruktur yönlü layihələri maliyyələşdirilməsi, Sahibkarlığa kömək Milli fondunun məqsədli maliyyələşdirmə təcrübələri önəmli hesab edilə bilər. Eyni zamanda, hesab edirik ki, hazırda ölkədə iqtisadi artımın dayanıqlılığının təmin edilməsi baxımından insan kapitalının inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə və özəl təşəbbüslərin stimullaşdırılması və onların dəstəklənməsi mexanizminin təkmilləşdirilməsinə ehtiyac vardır. Araşdırmalarımız göstərir ki, son dövrlərdə ölkəmizin məhsul və xidmətlər bazarında daxili tələbin həcmi 2000-ci ildə 4729,2 mln. manatdan 2009-cu ildə 25928,1 mln. manata qədər artmışdır. Aparılan hesablamalar həmçinin göstərir ki, daxili bazarda yerli məhsul və xidmətlərə çəkilən xərclər 2000-ci ildə 2929,2 mln. manatdan 2009-cu ildə 17928,1 mln. manata qədər və ya 6,1 dəfə artmışdır. Bu xərclər həm son istehlak, həm də investisiya məhsullarına çəkilən xərcləri əhatə edir. Bu baxımdan, qeyd edə bilərik ki, son illərdə daxili tələb yerli məhsul və xidmətlərin istehsalı həcminə əhəmiyyətli dərəcədə təsir göstərən amil olmuşdur.

5. Tədqiqatlar göstərir ki, Azərbaycanda 2004-2008-ci illərdə iqtisadi artım tempinin böyük olduğu şəraitdə inflyasiyanın səviyyəsi nisbətən yüksək olmuşdur [1, 2, 3].

2004-2008-ci illərdə inflyasiya səviyyəsi 6,7%-lə, 20,8% arasında dəyişmişdir. Belə meyil müxtəlif amillərin təsiri əsasında baş vermişdir. Bunlardan biri, ölkədə 2000-2009-cu illərdə nominal gəlirlərin həcminin əhəmiyyətli dərəcədə artması olmuşdur. Belə ki, qeyd edilən dövrdə ümumi daxili məhsulun nominal həcmi 7,5 dəfə, son istehlak xərcləri 5,1 dəfə, investisiya xərcləri 6,9 dəfə, ixrac 9,7 dəfə, idxal isə 4,5 dəfə artmışdır. 2009-cu ildə inflyasiyanın aşağı düşməsi həm xərclərin nominal artımının dayanması ilə, həm də xarici amillər hesabına baş vermişdir. Belə ki, dünya iqtisadiyyatında baş verən dərin böhran tələbin azalmasına və nəticədə qiymətlərin aşağı düşməsinə səbəb olmuşdur.

Araşdırmalarımız göstərir ki, ölkədə kapital yığımının artımının inflyasiya səviyyəsinin tənzimlənməsinə təsiri məhdud olmuşdur. Belə hal investisiya qoyuluşlarının əsas hissəsinin neft sektoruna və infrastruktur sahələrə yönəldilməsi ilə əlaqədardır. Bu sahələrin əksəriyyətində qiymətlərin dövlət tərəfindən aşağı səviyyədə saxlanması şəraitində yeni güclərin istifadəyə verilməsi qiymət səviyyəsinə məhdudlaşdırıcı təsir göstərməmişdir. Məsələn, 2007-ci ildə daxili bazarda neft və neft məhsullarının, enerjinin satış qiymətinin artırılması 2007- 2008-ci illərdə inflyasiyanın səviyyəsinin artımına müsbət təsir göstərmişdir. Həmçinin son illərdə əməkhaqqının artımı da inflyasiyanın yüksəlməsinə müsbət istiqamətdə təsir göstərmişdir. Belə ki, 2000-ci ilə nisbətən ölkədə orta aylıq nominal əməkhaqqı 2009-cu ildə isə 6,7 dəfə artmışdır. Orta aylıq əməkhaqqının artımının belə yüksək tempi gələcəkdə də gözlənilir. Həm enerjidaşıyıcılarının qiymətlərinin, həm də əməkhaqqının artımı xərc inflyasiyasına səbəb olur. Belə inflyasiyanın qarşısı əsasən idxal hesabına alına bilər. Bununla belə, digər şərtlər sabit qaldıqda xərc inflyasiyası daxili istehlakda idxalın payını artırır.

Ölkədə inflyasiya səviyyəsinə xarici amillərin təsiri əhəmiyyətli olmuşdur. Məlum olduğu kimi, dünya bazarında brent neftinin qiyməti 2000-ci ildəki 23,2 ABŞ dollarından 30 iyun 2008-ci il tarixində 143,2 ABŞ dollarına qədər artmış və bu tarixdən sonra azalmağa başlamış və artıq 2008-ci ilin sonunda neftin qiyməti 45 ABŞ dollarına bərabər olmuşdur. 2000-2008-ci illərdə neftin qiymətinin davamlı artımı bizim idxal məhsullarının dünya bazarında qiymətinin artmasına səbəb olmuşdur. Belə artıma həm də neftlə yanaşı digər xammal məhsullarının da qiymətlərinin yüksəlməsi də müsbət təsir göstərmişdir.

6. Araşdırmalar göstərir ki, aparılan məqsədyönlü iqtisadi siyasətin nəticəsində Azərbaycanın Mərkəzi Bankının xalis beynəlxalq aktivləri 2000-ci ilin sonunda 311,7 mln. manatdan 2010-cu ilin sonunda 5488.3 mln. manata bərabər olmuşdur [2, 3].

Bütövlükdə, 2010-cu ilin sonunda ölkənin strateji valyuta ehtiyatları 29,1 mlrd. ABŞ dollarına bərabər olmuşdur ki, bunun da 22766,8 mln. ABŞ dolları Dövlət Neft Fondunun aktivlərindən, 806,1 mln. ABŞ dolları hökumətin depozitlərindən, 5527,1 mln. ABŞ dolları Mərkəzi Bankın məcmu beynəlxalq ehtiyatlarından ibarətdir. 2000-

2009-cu illər ərzində daxili valyuta bazarının həcmi də əhəmiyyətli dərəcədə artmışdır. Bazarın həcmi 2003-cü ildə 9427,5 mln. manatdan 2010-cu ildə isə 25719,2 mln. manata qədər artmışdır. Strateji valyuta ehtiyatlarının həcmi və tədiyə balansının müsbət saldosunun dinamikası daxili valyuta bazarında milli valyutanın məzənnəsinin tənzimlənməsi imkanlarını artırmışdır. 2008-ci ildə dünyada başlayan maliyyə böhranı şəraitində Mərkəzi Bank tərəfindən milli valyutanın nominal məzənnəsinin sabit saxlaması bu imkanların mövcudluğunu bir daha göstərdi. Belə ki, 2008-ci ilin sonu 2009-cu ilin əvvəlində dünyada maliyyə böhranı ilə əlaqədar xarici investorlar ölkənin maliyyə bazarından 2 mlrd. ABŞ dollarından artıq vəsait xaricə çıxarmışdır (*bunun əsas hissəsi yerli bankların cəlb etdiyi xarici kreditlər olmuşdur*). Belə şəraitdə Mərkəzi Bank valyuta bazarında milli valyutanın məzənnəsinin sabit saxlanılmasına nail olmuşdur. Bu məqsədlə Mərkəzi Bank əvvəlki 5 ildə ilk dəfə olaraq valyuta bazarına satış yönümlü müdaxilə etmişdir. Belə ki, 2009-cu ildə Mərkəzi Bankın valyuta bazarına satış yönümlü müdaxiləsi 1260 mln. ABŞ dolları təşkil etmişdir. İllik müdaxilənin 95%-i ilin ilk dörd ayı ərzində həyata keçirilmişdir. Beləliklə, Mərkəzi Bank valyuta bazarında milli valyutanın məzənnəsini tənzimləmək imkanları böyükdür .Belə hal digər bazarlarda da tarazlığın qorunmasına şərait yaradır.

Lakin qeyd etmək istəyirik ki, məlum olduğu kimi, Azərbaycanda Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi, həmçinin ölkədə bank və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir. Araşdırmalarımız göstərir ki, Mərkəzi Bankın əsas fəaliyyət məqsədinin məhdudlaşdırılması iqtisadi inkişaf baxımından məqbul deyildir. Çünki milli iqtisadiyyatda iqtisadi artımın əsas parametrlərindən biri olan faiz dərəcəsi Mərkəzi Bankın nəzarətindədir və faiz dərəcəsinin aşağı salınması iqtisadi artımın stimullaşdırılmasının əsas alətlərindən biridir. Bundan başqa, ölkədə milli valyutanın möhkəmlənməsi inflyasiya səviyyəsinə əks təsir göstərir və inflyasiya səviyyəsini aşağı salır. Eyni zamanda məzənnənin möhkəmlənməsi mili istehsalçıların rəqabətqabiliyyətinə mənfi təsir göstərir. Belə şəraitdə makroiqtisadi sabitliklə iqtisadi artım arasında seçim edərkən Mərkəzi Bank öz məqsədinə uyğun olaraq makroiqtisadi sabitliyə üstünlük verir. Fikrimizcə, milli iqtisadiyyatın tam məşğulluq şəraitində olmadığı və iqtisadi sistemimizin yüksək açıqlığa malik olduğu şəraitdə, makroiqtisadi tarazlıqla iqtisadi artım arasında seçim edilərkən dayanıqlı iqtisadi artım tempinə üstünlük verilməlidir.

7. <u>Araşdırmalar göstərmişdir ki, 2000-2009-cu illərdə pul bazarında yaranmış vəziyyət pul təklifinin ümumi daxili məhsulun nominal həcminə nisbətən üstün artımı ilə xarakterizə olunmuşdur.</u>

2008-ci ildə nağd pul kütləsinin artımı, ümumi daxili məhsulun nominal həcminin artımını 1,8 dəfə, M2 pul aqreqatının artımı isə 2,2 dəfə üstələmişdir. Belə hal təbii ki, inflyasiya tempinə müsbət təsir göstərmişdir.

Son illərdə neft strategiyasının uğurla reallaşdırılması büdcə gəlirlərinin əhəmiyyətli şəkildə artımına səbəb olmuşdur. Belə ki, 2009-cu ildə dövlət büdcəsinin gəlirləri 2000-ci ilə nisbətən 14,4 dəfə, xərcləri isə 13,7 dəfə artmışdır. Qeyd edilən dövrdə dövlət büdcəsinin kəsiri makroiqtisadi tarazlıq üçün təhlükə törətməmiş və effektli normalar çərçivəsində olmuşdur. Belə ki, dövlət büdcəsinin kəsirinin ümumi daxili məhsula nisbəti 2000-ci ildə 1,05%-ə bərabər olmuş, 2001-2009-cu illərdə isə bu göstərici 0,03%-lə 0,68% arasında dəyişmişdir.

Araşdırmalar göstərir ki, Dövlət büdcəsinin gəlirlərinin 2009-cu ildə təqribən 65%-i neft gəlirləri hesabına formalaşmışdır. Həmçinin, büdcə gəlirlərinin formalaşmasında büdcə vəsaitləri hesabına maliyyələşdirmə zamanı əməkhaqqından gəlir vergisi, əlavə dəyər vergisi və digər vergilər hesablanaraq yenidən büdcəyə qaytarılır. Bu baxımdan, büdcədən ayrılan vəsaitlərin bir hissəsi vergi kimi yenidən büdcəyə qayıdır və bu ümumi büdcə gəlirlərinin məbləğində əks olunur. Nəticədə, büdcə gəlirlərinin bir hissəsini neft gəlirlərinin xərclənməsi hesabına büdcəyə qayıdan vəsaitlər təşkil edir. Bunu da nəzərə alsaq, onda neft gəlirlərinin büdcənin formalaşmasında payının daha da böyük olduğu qənaətinə gəlirik.

2000-ci ildə dövlət büdcəsinin gəlirlərinin ÜDM-ə nisbəti 15,15%-dən 2009-cu ildə 29,0%-ə, büdcə xərclərinin ÜDM-ə nisbəti isə 16,19%-dən 29,5%-ə qədər artmışdır. Bizim qənaətlərimizə görə, belə artıma, əsasən neft istehsal nəticəsində yaranan ÜDM-inin yenidən bölgüsü hesabına digər sahələrin məhsullarına tələbin əhəmiyyətli şəkildə artması səbəb olmuşdur.

Son illərdə ölkədə müəssisələrin vergi yükünün azaldılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, 2009-cu ildə mənfəət vergisi 22%-ə bərabər olmuşdur ki, bu da 2000-ci ildəkinə nisbətən 5 bənd azdır.

2010-cu il 1 yanvar tarixindən mənfəət vergisinin dərəcəsi 20%-ə qədər azaldılmışdır. Mənfəət vergisinin azaldılması xalis nağd pul axınlarının artmasına səbəb olur ki, bu da investisiyanın səmərəliliyini yüksəldir. Bununla belə, aparılmış araşdırmalar göstərir ki, ölkədə qeyri-neft sektorunda iqtisadi artımı təmin etmək üçün vergi dərəcələrinin azaldılması imkanları məhduddur və ya az təsirlidir.

Araşdırmalar göstərir ki, hazırkı şəraitdə özəl sektorun özünü maliyyələşdirmə imkanları məhduddur. Eyni zamanda, ölkədə ümumi kapital yığımının məcmu qənaətin təqribən yarısı səviyyəsində olması dövlət investisiyalarının artımı hesabına nisbətən səmərəli özəl investisiyaların sıxışdırılıb təxirə salınması halını aradan qaldırır. Bu baxımdan, dövlətin maliyyə imkanlarının artdığı bir şəraitdə özəl bölmənin inkişafının maliyyələşdirilməsində iştirakının artırılmasının milli iqtisadiyyatın inkişafı baxımından mühüm əhəmiyyəti vardır. Fikrimizcə, dövlətin birbaşa investisiya fəaliyyəti ilə yanaşı, özəl sektorun maliyyə imkanlarının artırılmasında iştirakının və özəl sektorla dövlət arasında investisiya əməkdaşlığının genişləndirilməsinə ehtiyac vardır.

Ölkənin iri həcmdə sərbəst vəsaitlərə malik olduğu bir şəraitdə, özəl sektor da

daxil olmaqla, investisiya qoyuluşlarının yerli vəsaitlər hesabına maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsinə ehtiyac vardır. Belə ki, araşdırmalar göstərir ki, 2008-ci ildə ABŞ dolları üzrə orta 3 aylıq LIBOR 3,18%-ə, Azərbaycan Dövlət Neft Fondunun valyuta vəsaitlərinin orta illik gəlirliyi isə 3,8%-ə bərabər olmuşdur. Fikrimizcə, bu vəsaitlərin bir hissəsinin həm yerli banklar, həm də inkişaf institutları vasitəsilə özəl bölmənin maliyyələşdirilməsinə yönəldilə bilər. Xüsusilə, ölkədə ixrac yönümlü və milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinə imkan verən sahələrdə müəssisələrin yaradılmasına, mövcud olanların isə inkişaf etdirilməsinə investisiya qoyuluşlarının maliyyələşdirilməsi məqsədəuyğundur.

8. <u>Araşdırmalar göstərir ki, makroiqtisadi tarazlığa təsir göstərən əsas amillərdən biri ev təsərrüfatlarının xərcləridir.</u>

Bu xərclərin maliyyələşdirilməsi üçün yaranan gəlirlərin tərkibinin təhlil göstərir ki, 2008-ci ildə ev təsərrüfatlarının ilkin gəlirlərinin 52,3%-i ümumi mənfəət, 45,9%-i isə əmək ödənişləri hesabına təmin edilmişdir. Bu göstərici 2000-ci ildə müvafiq olaraq 58,1%-ə və 41,4%-ə bərabər olmuşdur. Ev təsərrüfatlarının ilkin gəlirlərinin strukturunda müsbət meyillər baş vermişdir. Bununla yanaşı, araşdırmalar göstərir ki, 2000-ci ildə emal sənayesində yaradılan əlavə dəyərdə ev təsərrüfatlarının payı 63,8%-ə, kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı sahəsində əlavə dəyərdə payı 98,2%-ə, 2008-ci ildə bu göstəricilər isə müvafiq olaraq 20,3%-ə və 95,9%-ə bərabər olmuşdur. Göründüyü kimi, son illərdə emal sənayesində əlavə dəyərdə müəssisələrin payı artmışdır. Bununla belə bu sahələrdə ev təsərrüfatlarının payının nisbətən yüksək olması ölkədə ev təsərrüfatlarının istehlakında öz istehsalı olan məhsulların payının yüksək olduğunu göstərir. Bu hal isə makroiqtisadi tarazlığın pozulmasına məhdudlaşdırıcı təsir göstərir.

Azərbaycanda makroiqtisadi tarazlığa müsbət təsir göstərən amillərdən biri 2000-2008-ci illərdə müşahidə olunan son istehlak xərclərinin təqribən qeyri-neft ümumi daxili məhsuluna bərabər olması meyilidir. Nəzərə almaq vacibdir ki, son istehlak xərcləri ilə qeyri-neft ümumi daxili məhsulun fərqliliyi mahiyyət etibarı ilə inflyasiyaya əlavə təsirlər doğura bilir. Son istehlak xərcləri ilə ümumi daxili məhsul arasındakı fərq böyüdükcə inflyasiya tempi də yüksək olur. Həmçinin təhlil göstərir ki, dövlət istehlak xərclərinin həcmi də təqribən qeyr-neft sahələrindən əldə edilən büdcə gəlirlərinin həcminə müvafiq olmuşdur. Ona görə də bu amili də ölkədə makroiqtisadi tarazlığa müsbət təsir göstərən faktor hesab etmək olar.

Yüksək iqtisadi artım və daxili tələbin artdığı bir şəraitdə ölkədə makroiqtisadi tarazlığın pozulmasını məhdudlaşdıran mövcud amillərdən biri də dövlətin daxili bazarda çəkilən xərclərin həcmini tənzimləmək imkanları ilə bağlıdır. Araşdırmalar göstərir ki, ev təsərrüfatlarının son istehlak xərclərinin formalaşmasına da dövlət yenidən bölgü mexanizmi ilə əhəmiyyətli təsir imkanlarına malik olmuşdur. Belə ki, 2008-ci ildə ev təsərrüfatlarının sərəncamında qalan 13738,1 mln. manat məbləğində gəlirlərin 1734,9 mln. manatı sosial müavinətlər hesabına for-

malaşmışdır. Eyni zamanda, qeyri-maliyyə müəssisələrinin qənaətinin bir hissəsi də dövlət müəssisələrinin payına düşmüşdür. Beləliklə, hazırda hökumət milli iqtisadiyyatda xərclərin həcmini, bununla da makroiqtisadi tarazlığı tənzimləmək sahəsində böyük imkanlara malikdir.

Araşdırmalar göstərir ki, qeyd edilən məqamlar əslində eyni zamanda inkişafın davamlılığının təmin edilməsinə də bilavasitə xidmət edir. Lakin inkişafın davamlılığının təmin edilməsi həm də bir sıra digər tədbirlərin sayəsində mümkün olmuşdur. Bu baxımdan dövlət büdcəsinin xarakterinin əhəmiyyətli dərəcədə dəyişməsi, onun faktiki olaraq inkişaf büdcəsinə çevirilməsi xüsusi qeyd edilməlidir. Məsələn, son 6 ildə Dövlət büdcəsinin investisiya xərcləri 5 mlrd. manat olmuşdur ki, bu həmin dövrdə büdcə xərclərinin 30% çox hissəsini təşkil etmişdir. Belə nisbətən uzun müddətdə investisiya xərclərinin yüksək payının saxlanılması, Dövlət büdcəsinin trendlərinin əsaslığını ifadə edir. Nəzərə almaq vacibdir ki, dövlət investisiya xərclərinin faktiki seçilmiş istiqamətliliyi göstərir ki, onun sürətli artımı dövlətin iqtisadi fəaliyyətdə dominantlığının güclənməsini doğurmur. Əksinə ölkəmizdə ÜDM istehsalında dövlətin payı davamlı olaraq azalmaqdadır. Bu ona görə baş verir ki, dövlət vəsaitləri, haqlı olaraq ictimai xidmətlərin mühüm sahələrinin o cümlədən sosial, enerji və yol infrastrukturunun modernləşdirilməsinə yönəldilir. Digər tərəfdən belə siyasət qeyri-neft sektorunun inkişafının dəstəklənməsi kimi dəyərləndirilə bilər. Dövlətin bu sahəyə diqqətinin vacib elementləri kimi kənd təsərrüfatı və ona yaxın sahələrə vergi güzəştləri siyasətinin uzun illər ərzində davam etdirilməsi, son illərdə isə kiçik sahibkarlığın dəstəklənməsi üçün Sahibkarlığa kömək Milli Fondu vasitəsi ilə ayrılan vəsaitlərin həcminin əhəmiyyətli çoxalmasını (*məsələn, son 7 ildə bu məqsədlə 500 mln. manata yaxın Dövlət vəsaiti istifadə edilmişdir*) və s. qeyd etmək olar.

9. <u>Araşdırmalar göstərir ki, reallaşdırılmış uğurlu inkişaf strategiyasının bilavasitə nəticəsi olaraq XXI əsrin ilk onilliyində Azərbaycanda dövlətin iqtisadi siyasətinin keyfiyyət və mahiyyətcə yeni vəzifələri və məqsədləri meydana gəlmişdir.</u>

Yeni vəzifələrin əsas əlaməti inkişafın resursların çatışmazlığı şəraitində yox, əksinə bolluğu şəraitində, daha məhsuldar və adekvat nəticəliliyə nail olunması kimi identifikasiya edilə bilər. Bu mənada iqtisadi siyasətin yeni, mühüm vəzifələrindən və xüsusiyyətlərindən biri maliyyə resurslarının idarə olunması ilə bağlıdır. Qeyd olunan xüsusiyyətlər, son 7-8 ildə maliyyə resurslarının cəlbi və idarə olunmasına yanaşmalarda nəzərə çarpan, xarici borclanmaya təmkinli münasibət, məsələn 2010-cu ilin yekunlarına əsasən Azərbaycana xaricdən cəlb edilən kreditlərin ümumi həcmi ÜDM-in 8%-dən az olmaqla, 92%-i bilavasitə kommersiya krediti şəklində konkret investisiya layihələrinə yatırılmışdır; iqtisadiyyatın daxili potensialının səfərbər olunmasına önəm verilməsi, məsələn, son bir neçə ildə iqtisadiyyata yatırılan məcmu investisiyaların strukturunda daxili investisiyalar ciddi üstünlüyə malikdir;

mövcud resurslardan səmərəli istifadə ilə yanaşı onların artımının real sektora mənfi təsirlərinin qarşısının alınması, maliyyə bazarının sistemli strelizasiyası və inflyasiya tarqetləşdirilməsi meyillərinin qorunması kimi cəhətlərlə yanaşı, iqtisadi fəallığın stimullaşdırılması üçün bank fəaliyyətinin institusional və funksional müstəvilərdə məqsədli tənzimlənməsi kimi məsələlərə önəm verilməsində və s. təzahür etmişdir.

İqtisadi inkişafın davamlı və yüksək sürəti iqtisadiyyatda maliyyə axınlarının idarə edilməsinə ənənəvi yanaşmalarda qaçmanı tələb edir. Araşdırmalar göstərir ki, inkişafın davamlılığının təmin edilməsi baxımından həyata keçirilən iqtisadi siyasətin mühüm bir cəhəti daxili iqtisadi fəallığın artırılması üçün dövlət vəsaitlərinin istifadəsinə xüsusi diqqət verilməsi, büdcə və dövlət təsərrüfat subyektlərinin sərbəst vəsaitlərinin dövriyyəyə cəlbinin stimullaşdırılması hesab edilə bilər. Belə vəsaitlər xüsusi ilə regional inkişafın dəstəklənməsi prizmasından əhəmiyyətlidir. Regional inkişafın dəstəklənməsi iqtisadi inkişafın ərazi tarazlığının təmin edilməsi, yerli resursların təsərrüfat dövriyyəsinə cəlbi, investisiya resurslarının əyalətlərə istiqamətləndirilməsi, qeyri-neft sektorunun inkişaf prioritetliyinin bərpa edilməsi və əhalinin sosial şəraitinin yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsinin əsas vasitələrindən olmuşdur.

10. <u>Azərbaycanda iqtisadi inkişafın dayanıqlığı, davamlılığı və tarazlığının təmin edilməsi baxımından mühüm siyasət elementlərindən biri ölkənin xarici iqtisadi doktrinasının mahiyyət paradiqmasının dəyişməsi hesab edilə bilər.</u>

Xarici iqtisadi doktrinamız resursların istifadəsində ənənəvi marjinal faydalılığın artırılmasına deyil, geoiqtisadi mövqenin möhkəmləndirilməsi vasitəsi ilə milli strateji məqsədlərin həllinə üstünlük verilməsinə hədəfləndirilir. Ona görə də son illərdə Azərbaycanın iqtisadi inteqrasiya və iki tərəfli əməkdaşlıq siyasətində vurğuların məqsədyönlü dəyişməsi müşahidə edilir.

Araşdırmalar göstərir ki, problemin həlli geoiqtisadi yanaşmaya əsaslanır. Müasir dünya təsərrüfat sistemində de-fakto yaranmış təkrar istehsal arxitekturası nəzərə alınmadan, istənilən ölkənin milli rəqabətqabiliyyətliliyinin yüksəldilməsi mümkün deyil. Milli iqtisadi sistemlər bu arxitekturada dünya təkrar istehsal dövrlərinin ayrılmaz həlqələri kimi çıxış edir. Dünya təcrübəsi isə sübut edir ki, milli təsərrüfatların istehsal tsikllərinin bu və ya digər həlqəsinə vaxtında və hazırlıqlı daxil olması dünya gəlirlərinin formalaşması və yenidən bölüşdürülməsində davamlı iştirakının başlıca şərtidir. Bu vəzifənin yerinə yetirilməsinin əsas şərti isə ölkənin milli rəqabətqabiliyyətliliyinin düzgün qiymətləndirilməsi, adekvat geoiqtisadi strategiyanın formalaşdırılması və realizasiyası vasitəsi ilə milli rəqabətqabiliyyətliliyin daha yüksək səviyyəsinə nail olunmasıdır.

Tədqiqatlarda Azərbaycanın Davos "Dünya İqtisadi Forumu" tərəfindən müəyyən olunmuş və "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"nda əks olunmuş "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi" MDB ölkələri ilə müqayisəli təhlil olunmuşdur. Ölkənin rəqabətqabiliyyətliliyini müəyyən edən əsas indikatorların yekun rəqabətqa-

biliyyətliliyinə təsiri araşdırılmış və rəqabətqabiliyyətliliyi aşağı salan zəif nöqtələr müəyyən edilmişdir. Ölkənin milli rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin əsas vektorları kimi investisiyalar, innovasiyalar və klasterləşmə müəyyən edilmişdir. Təhlillərin nəticəsində Azərbaycanın milli rəqabətqabiliyyətlilik modeli qurulmuşdur.

Milli rəqabətqabiliyyətliliyi müəyyən edən göstəricilərə əsasən, ölkənin milli rəqabətqabiliyyətliliyinin yüksəlməsi bütövlükdə "Makroiqtisadi mühit" və "Əmək bazarının effektivliyi" indikatorları hesabına baş vermişdir. Qalan indikatorlar və xüsusilə "Əmtəə bazarının effektivliyi", "Səhiyyə və ibtidai təhsil", "Ali təhsil və peşə hazırlığı" "İnfrastruktur", "Bazarın ölçüsü" indikatorları isə əksinə bizim rəqabətqabiliyyətimizi aşağı salır. Apardığımız araşdırmaların nəticəsi olaraq Azərbaycanın milli rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün həyata keçirilməsi zəruri tədbirlər təklif olunmuşdur.

Tədqiqatlar sübut edir ki, Azərbaycanın geoiqtisadi strategiyasını müəyyən edən mühüm amillərdən biri ölkəmizin əlverişli coğrafi mövqeyidir. "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan regionda reallaşdırılması nəzərdə tutulan nəqliyyat layihələri müvəffəqiyyətlə başa çatdırıldıqdan sonra Xəzər regionundakı bütün nəqliyyat marşrutlarını birləşdirən "qovşaq" rolunu oynaya bilər.

Azərbaycanın geoiqtisadi strategiyasının mühüm istiqamətlərindən biri də ixrac potensialının yüksəldilməsi və onun strukturunda mütərəqqi dəyişikliklərə nail olunmasıdır. Qlobal təkrar istehsal tsikllərinə qoşulmaq üçün Azərbaycanda yüksək texnoloji istehsal sahələrinin yaradılması, innovasiyaların hərtərəfli təşviqi, mövcud investisiya resurslarından səmərəli istifadə olunması zəruridir.

## 4. Nəticə

Aparılan araşdırmaları yekun olaraq aşağıdakı tezislərdə ifadələndirmək olar:

- ❖ Milli inkişaf modelinin ən mühüm xüsusiyyəti dövlətin iqtisadi siyasətinin inkişafın davamlılığı, dayanıqlılığı və tarazlığına hədəflənməsidir;
- ❖ Azərbaycanda neft və qaz hasilatı hesabına yüksək iqtisadi artım şəraitində makroiqtisadi tarazlığın əhəmiyyətli şəkildə pozulması böyük ehtimala malik deyildir;
- ❖ ölkədə iqtisadi artımın dayanıqlılığının təmin edilməsi baxımından insan kapitalının inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə və özəl təşəbbüslərin stimullaşdırılması və onların dəstəklənməsi mexanizminin təkmilləşdirilməsinə ehtiyac vardır;
- ❖ milli iqtisadiyyatın tam məşğulluq şəraitində olmadığı və iqtisadi sistemimizin yüksək açıqlığa malik olduğu şəraitdə, makroiqtisadi tarazlıqla iqtisadi artım arasında seçim edilərkən dayanıqlı iqtisadi artım tempinə üstünlük verilməlidir;

- dövlətin birbaşa investisiya fəaliyyəti ilə yanaşı, özəl sektorun maliyyə imkanlarının artırılmasında iştirakının və özəl sektorla dövlət arasında investisiya əməkdaşlığının genişləndirilməsinə ehtiyac vardır;
- dövlət investisiya xərclərinin faktiki seçilmiş istiqamətliliyi göstərir ki, onun sürətli artımı dövlətin iqtisadi fəaliyyətdə dominantlığının güclənməsini doğurmur. Əksinə ölkəmizdə ÜDM istehsalında dövlətin payı davamlı olaraq azalmaqdadır;
- regional inkişafın dəstəklənməsi iqtisadi inkişafın ərazi tarazlığının təmin edilməsi, yerli resursların təsərrüfat dövriyyəsinə cəlbi, investisiya resurslarının əyalətlərə istiqamətləndirilməsi, qeyri-neft sektorunun inkişaf prioritetliyinin bərpa edilməsi və əhalinin sosial şəraitinin yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsinin əsas vasitələrindən olmuşdur.

## Ədəbiyyat siyahısı

1. Azərbaycanın statistik göstəriciləri 2010, Bakı: Səda, 2010, 240 s.
2. Azərbaycanın Milli Hesabları 2010. Statistik məcmuə. Bakı: Səda, 2010, 312 s.
3. Azərbaycan Dövlət Neft Fondu. İllik hesabat 2009. Bakı: 2010, 76 s.
4. “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanunu
5. Hacıyev Ş.H. Azərbaycanın iqtisadi inkişafının model identifikasiyası. “Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası” Bakı: Azərnəşr, 2011, 708 s.
6. Həsənov R.T. Tənəzzüldən Stabilliyə, Stabillikdən tərəqqiyə doğru təkamülün xüsusiyyətləri və perspektivləri. “Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası”, Bakı: Azərnəşr, 2011, 708 s.
7. Карев М.Г. Инфляция, реальный обменный курс и денежная политика в экономике с ограниченной эластичностью потока капитала по процентной ставке / Экономический журнал ВШЭ, № 3, 2009, 216 s.
8. Кейнс Дж.М. Общая теория занятости, процента и денег, М.:, “Гелиос АРВ”, 1999, с.352
9. Туманова Е.А., Шагас Н.Л. Макроэкономика. Элементы продвинутого подхода: Учебник. М.: ИНФРА-М, 2004, 407 s.
10. Система Национальных Счетов 1993. Нью-Йорк, United Nations, 1998, 000 s.
11. Самуэльсон П.А., Нордхаус В. Д. Экономика. М.: “БИНОМ”, 1997, 826 s.
12. Сакс Д., Ларрен Ф. Макроэкономика, условный подход М. АНХ при президенте РФ 1996. 848 s.

**Гасанов Расим Тапдыг оглу**
доктор экономических наук, профессор
Азербайджанский Государственный Экономический Университет

# Особенности модели социально-экономического развития современного Азербайджана

## Аннотация

*Цель исследования* - подготовка предложений и рекомендаций на основе комплексного анализа социально-экономической ситуации в Азербайджане для обеспечения устойчивого экономического развития, определение уровня макроэкономического равновесия и устойчивости экономического роста.

*Методология исследования* - состоит из теоретических научных методов, а также методов статистического анализа и группирования.

*Результаты исследования* - исследованы особенности путей развития экономики Азербайджана в течение последних лет и сформированы заключения о путях обеспечения макроэкономического равновесия.

*Ограничения исследования* - в работе рассмотрены, в основном, экономические факторы устойчивого роста. Так как Азербайджан является небольшой страной , автор в данной работе исследовал малую открытую модель страны с точки зрения экономического потенциала.

*Практическая значимость исследования* - работа позволяет изучать движущие факторы и основные тенденции современного этапа развития экономики Азербайджана.

*Оригинальность и научная новизна исследования* - в статье представлены специфические особенности современного социально-экономического развития экономики Азербайджана.

**Ключевые слова:** *экономика Азербайджана, экономический рост, нефтяные доходы, макроэкономическое равновесие.*

**Prof. Dr. Rasim Hasanov**
Azerbaijan State Economic University
Director of “Economic Researches” Scientific-Researching Institute

## Main features of model of social-economic development of modern Azerbaijan

### Abstract

*Purpose* - it consists of making offers and recommendations by sustainability of growth and detecting the level of macroeconomic balance and providing the sustainbility of economic growth based on complex analysis of current social ecnomic conditions in Azerbaijan.

*Methodology* - consists of general theoretical scientific methods, statistical anaysis and the methods of classification.

*Results* - gives a form about providing macroeconomic balance by exploring the features of last years' progress way of Azerbaijan economy.

*Restrictions* - it is looked through mainly economic factor of durable growth at research process. As author`s thought, model of small opened country is being eplored as economic potential of Azerbaijan is little.

*Practical importance* - let's studying main trends and motive factors of Azerbajan economy in modern world.

*Originality* -the specific features of modern social economic growth of Azerbajan are presented in context of 'national social-economic model of development' in the article.

**Key words:** *Azerbaijan economy, economic growth, durable growth, investment, employment, oil revenue, macroeconomic balance*

**JEL Classification Codes:** O1, E0, E2,

Məqalə redaksiyaya daxil olmuşdur: 04.04.2012.
Təkrar işləməyə göndərilmişdir: 07.04.2012.
Çapa qəbul olunmuşdur: 22.04.2012.